


# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 68 (23.955)

*14 aprel 2022-ci il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


*“Sənaye ili” – 2022*

## Muxtar respublikada sənaye davamlı inkişaf yolundadır

Muxtar respublikada iqtisadiyyatın aparıcı sahəsi olan sənayenin inkişafı ötən il də diqqətdə saxlanılmış, rəqabətqabiliyyətli müasir sənaye müəssisələrinin yaradılması, sənayenin infrastruktur təminatının yaxşılaşdırılması istiqamətində çoxsaylı layihələr icra edilmiş, yeni iş yerləri açılmış, əhalinin məşğulluğu təmin olunmuşdur.

Muxtar respublikada sənayenin inkişafını yüksək qiymətləndirən ölkə başçısı cənab İlham Əliyev demişdir: ***“Sənaye potensialı inkişaf edir, artır. Naxçıvan Muxtar Respublikası son 20 il ərzində iqtisadi artımın templərinə görə rekordsmen bölgədir. Ümumi daxili məhsul 10 dəfədən çox artıb”.***

2021-ci ildə muxtar respublikada sənayenin ümumi inkişafını əks etdirən əsas göstərici kimi 1 milyard 69 milyon 655 min 700 manat dəyərində məhsul istehsalı qeydə alınmışdır ki, bu da 2017-ci ildəki müvafiq göstəricidən 10,6 faiz çoxdur.

***Sənaye məhsulu, min manat***




2021-ci ildə sənaye məhsulunun 7,7 faizi dövlət sektorunda, 92,3 faizi qeyri-dövlət sektorunda istehsal edilmişdir. Muxtar respublikada qeydə alınmış ümumi daxili məhsulun tərkibində ilk yeri isə 27,1 faizlik payla sənaye sahəsi tutmuşdur.

2021-ci ildə hər bir nəfərə düşən sənaye məhsulu 2310,3 manat təşkil etmişdir. Sənaye məhsulu istehsalının 94,6 faizi malların, 5,4 faizi isə xidmətlərin payına düşmüşdür. Sənaye məhsulunun 0,1 faizi mədənçıxarma sənayesində, 0,5 faizi su təchizatı; çirkli suların və tullantıların təmizlənməsi, 6,9 faizi elektrik enerjisi, qaz, buxar və kondisiyalaşdırılmış hava ilə təchizat müəssisələrində və 92,5 faizi emal sənayesində istehsal olunmuşdur.

2021-ci ildə emal sənayesində qeydə alınmış məhsul istehsalı 2017-ci ildəki müvafiq göstəricini 7,7 faiz üstələmişdir. Emal sənayesi kənd təsərrüfatından və mədənçıxarma sənayesindən əldə edilən məhsulların işlənildiyi və istifadəyə hazır vəziyyətə gətirildiyi sahə olub məşğulluğun təmin edilməsində mühüm rol oynayır.

Muxtar respublikada mikro və kiçik sahibkarlıq subyektlərinin yaradılmasının dəstəklənməsi istiqamətində “Naxçıvan Muxtar Respublikasında ailə təsərrüfatlarının inkişafı ilə bağlı tədbirlər haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 22 noyabr tarixli 197-05/S nömrəli və 2019-cu il 18 yanvar tarixli 320-05/S nömrəli sərəncamlarının icrası istehsal və emal fəaliyyəti ilə məşğul olan ailə təsərrüfatlarının sayının, eləcə də onların istehsal etdikləri məhsulların növ və çeşidlərinin artımına müsbət təsir göstərmişdir.





Sənayenin inkişafı məqsədilə bank və kredit təşkilatları tərəfindən təsərrüfat subyektlərinə təkcə 2021-ci ildə 11 milyon 276 min manat kredit verilmişdir ki, bu da 2017-ci ildəki müvafiq göstəricidən 19,9 dəfə çoxdur.

Naxçıvan Muxtar Respublikasında xalça və xalça məmulatlarının istehsalını, satışını və bu sahənin inkişafı ilə bağlı kompleks tədbirlərin həyata keçirilməsini təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən “Naxçıvan Xalça və İplik İstehsalı Müəssisəsi” Məhdud Məsuliyyətli Cəmiyyətinin yaradılması haqqında 2021-ci il 24 noyabr tarixdə Sərəncam imzalanmışdır.

Sənayenin dinamik inkişafı bu sektorda işləyən işçilərin say tərkibinin artımına da təsir göstərmişdir. Belə ki, 2021-ci ildə 3219-u dövlət, 13868-i qeyri-dövlət sektorlarında olmaqla, ümumilikdə, sənaye sahəsində 17087 nəfər işçi çalışmışdır ki, bu da 2017-ci ildəki müvafiq göstəricidən 5,2 faiz çoxdur.

2021-ci ildə işçilərin 4 faizi mədənçıxarma sənayesində, 8 faizi su təchizatı; çirkli suların və tullantıların təmizlənməsi, 9,9 faizi elektrik enerjisi, qaz, buxar və kondisiyalaşdırılmış hava ilə təchizat müəssisələrində və 78,1 faizi emal sənayesində çalışmışdır. Bu dövr ərzində bir işçiyə hesablanmış ortaaylıq əməkhaqqı 454,1 manat təşkil etmişdir. 2017-ci ildə isə bu göstərici 381,9 manat səviyyəsində olmuşdur.

Sənayenin davamlı inkişafı istiqamətində həyata keçirilən tədbirlər cari ilin yanvar-mart aylarında da davam etdirilmiş, mebel, süd məhsulları və çörək istehsalı sahələri yaradılmış, elektrik enerjisi, mebel, duz, oksigen, alkoqollu içki, salfet, enerji içkiləri, karton tara və kağız paket, ayaqqabı istehsalı və süd məhsullarının emalı sahələrinin yaradılması hazırda davam etdirilir.

Sənayenin davamlı inkişafı və yeni məhsul növlərinin istehsalı məqsədilə Şərur Sənaye Məhəlləsində həyata keçirilən layihələr də kiçik və orta sahibkarlığın inkişafında, daxili bazarın yerli məhsullarla təminatında, o cümlədən məşğulluğun artırılmasında önəmli rol oynayacaqdır.

Muxtar respublikada sənayenin əhəmiyyətini vurğulayan Ali Məclisin Sədri demişdir: ***“Sənaye müəssisələri, ilk növbədə, daxili bazarı yerli istehsal məhsulları ilə təmin etməlidir. Bu gün ölkəmizdəki sabitlik və inkişaf, sahibkarlara göstərilən dövlət qayğısı, verilən kreditlər və daxili bazarın qorunması imkan verir ki, yeni sahibkarlar formalaşsın, kiçik müəssisələr inkişaf edərək böyük sənaye müəssisələrinə çevrilsinlər”.***

2022-ci ilin muxtar respublikada “Sənaye ili” elan edilməsi sənaye sahəsində rəqabətqabiliyyətli və ixracyönümlü məhsul istehsalının təşviqinə, innovasiyalara əsaslanan yeni müəssisələrin qurulmasına, yeni məhsul növlərinin istehsalına şərait yaradacaqdır.

***Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti***

## Torpaqların su təminatı yaxşılaşdırılır



*Naxçıvan Muxtar Respublikasında 2022-ci ilin suvarma mövsümünə hazırlıqla əlaqədar olaraq Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin tabe təşkilatları tərəfindən ilin əvvəlindən tərtib edilmiş qrafikə uyğun olaraq mart ayı ərzində kanallarda, nasos stansiyalarında, təzyiqli boru xətlərində və digər hidrotexniki qurğularda təmir işlərinin aparılması və su anbarlarına suyun yığılması işləri diqqətdə saxlanılmış, ay ərzində sututarlara 18,24 milyon kubmetr su yığılmışdır.*

Ötən ay 0,3 kilometr selə qarşı istiqamətləndirici bənd tikilmiş, 32,94 kilometr beton və torpaq kanal, 17,97 kilometr ara arxlar, 0,2 kilometr kollektor lildən təmizlənmiş, 0,73 kilometr içməli su, 0,39 kilometr kanalizasiya, 4,75 kilometr suvarma boru, 1,05 kilometr təzyiqli boru xətləri çəkilmişdir. 2,07 kilometr mövcud içməli su, 0,13 kilometr kanalizasiya, 1,57 kilometr suvarma boru, 1,11 kilometr təzyiqli boru xətlərində və 0,23 kilometr kaptajlarda təmir-bərpa işləri aparılmışdır.

Torpaq sahələrinin su ilə təminatının yaxşılaşdırılması və su itkisinin qarşısının alınması məqsədilə mövcud kanal və arxların ehtiyac olan hissələrində təmir-bərpa işləri davam etdirilmişdir. Yeni torpaq sahələrinin əkin dövriyyəsinə qatılması hesabına suvarılan torpaq sahələrinin genişləndirilməsi istiqamətində Babək rayonunun Nehrəm qəsəbəsi ərazisində 250 hektar sahədə qapalı suvarma şəbəkəsinin tikintisi davam etdirilmişdir. Ərazidə 2,89 kilometr paylayıcı xətlər çəkilmiş, 5,15 kilometr müxtəlif diametrli plastik borular qaynaq edilmiş və suvarma boru xətlərinin çəkilişi üçün qazma işləri aparılmışdır.

Kəngərli rayonunun Böyükdüz kəndinin 2100 hektar əkin sahələrini suvarma suyu ilə təmin etmək məqsədilə Araz çayından qidalanan yeni nasos stansiyasının və təzyiqli boru xəttinin tikintisi uğurla həyata keçirilir.

Görülən işlər nəticəsində Sədərək rayonunda 1,1 hektar torpaq sahəsində qrunt sularının səviyyəsi aşağı salınaraq şoranlaşmanın qarşısı alınmışdır. Torpaq sahələrini və yaşayış məntəqələrini sel sularının zərərli təsirindən qorumaq üçün Babək rayonunda Sirab və Qaraqala selovlarında 0,3 kilometr selə qarşı istiqamətləndirici bənd tikilmişdir.

Yaşıllıq zolaqlarının suvarma suyu ilə təminatını yaxşılaşdırmaq məqsədilə Babək rayonu ərazisində Uzunoba gölü yaxınlığında olan təpədə salınmış yaşıllıq zolaqlarının 0,95, Culfa şəhəri ərazisində isə 0,07 kilometr suvarma boru xətlərində təmir-bərpa işləri aparılmışdır.

Babək rayonu ərazisində Uzunoba gölünün ətrafında tikilən bağ evlərinin yaxınlığındakı təpədə yeni üzüm bağının salınması məqsədilə müvafiq işlər başa çatdırılmışdır. Yeni salınmış bağın suvarma suyu ilə təmin edilməsi üçün 450 metr uzunluğunda suvarma xətti çəkilmiş, 1200 metr uzunluğunda paylayıcı xətlər quraşdırılmış və bağın damcı üsulu ilə suvarılması üçün əlverişli şərait yaradılmışdır. Kəngərli rayonunda Şahtaxtı Gömrük İdarəsinə gedən avtomobil yolunun kənarlarında salınmış yaşıllıq zolaqlarını damcı üsulu ilə suvarmaq üçün suvarma boru xətlərinin çəkilişi davam etdirilmiş, 0,2 kilometr boru xətti çəkilmişdir.

Hesabat ayında 1 kəhrizdə təmir-bərpa işləri başa çatdırılmış, 5 kəhrizdə isə təmir-bərpa işləri davam etdirilmişdir. Suvarma və içməli su mənbəyi kimi istifadə olunan 44 subartezian quyusu təmir olunmuşdur. “Rayon mərkəzi və ətraf kəndlərin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması” layihəsi çərçivəsində Kəngərli rayonunun Qarabağlar kəndində 1 subartezian quyusunun tikintisi başa çatdırılmış, Culfa rayonunun Yaycı kəndində əhalinin içməli su təminatının yaxşılaşdırılması məqsədilə su təchizatı şəbəkəsinin tikintisi davam etdirilmiş, müxtəlif diametrli borularla 6,81 kilometr içməli su xətti quraşdırılmış və 110 evin su xəttinə birləşməsi işləri aparılmışdır.

***Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin mətbuat xidməti***

## “Cahan İnşaat” Məhdud Məsuliyyətli Cəmiyyətinin maddi-texniki bazası gücləndirilir

Muxtar respublikamızda həyata keçirilən geniş tikinti-quruculuq tədbirlərindən və əlverişli biznes mühitindən bəhrələnərək fəaliyyətə başlayan “Cahan İnşaat” Məhdud Məsuliyyətli Cəmiyyəti bu sahənin inkişafında yaxından iştirak edir. Hazırda cəmiyyətin tərkibində tikinti tamamlama, maşın mexanizmləri, beton zavodu kimi sahələr fəaliyyət göstərir. Muxtar respublikada inşaat sektorunda tələbatların ödənilməsində bu müəssisənin rolu böyükdür.



“Cahan İnşaat” Məhdud Məsuliyyətli Cəmiyyətinin Beton Məmulatları İstehsalı Zavodu 2013-cü ildə yerli tikinti materiallarına artan tələbatın ödənilməsi məqsədilə yaradılıb. Zavod müasir texnoloji avadanlıqlarla, o cümlədən Türkiyənin qabaqcıl təcrübəyə malik “Pİ Makina” şirkətinin istehsalı olan kompüterlə idarəetmə mərkəzi ilə təmin olunub. Burada məsafədən idarə edilən 5 tonluq körpü-kran, avtomatik qapılar quraşdırılıb, həmçinin 17 ağırtonnajlı yük avtomobili, 12 mikser və 4 digər iş texnikasından istifadə olunur. Hazırda istehsal gücü saatda 120 kubmetr olan müəssisədə 7 çeşiddə beton məmulatları, istehsal gücü saatda 150 kubmetr olan 4 çeşiddə daşqırma və qumələmə məmulatları istehsal edilir.

Yerli xammaldan istifadə olunan müəssisədə maşın-mexanizmlərə texniki xidmətin təşkili və onların istismar müddətinin uzadılması da diqqət mərkəzində saxlanılır. Daxili tələbatı nəzərə alaraq işin keyfiyyətini yüksəltmək, uğurlu nəticələrin davamlılığını artırmaq məqsədilə müəssisəyə Türkiyə istehsalı olan 3 yeni “CAT 432” markalı maşın-texnika da gətirilib. Bu texnikalar muxtar respublikada içməli su şəbəkəsi və kanalizasiya sistemlərinin çəkilişində istifadə olunacaqdır.

***“Cahan Holdinq” Kommersiya Şirkətlər İttifaqının mətbuat xidməti***

# Hamiliyə verilmiş ixtisasların tələbələri üçün seminar keçirilib



*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında” 2019-cu il 3 aprel tarixli Sərəncamının icrası istiqamətində növbəti seminar keçirilib.*

Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin təşkilatçılığı ilə “Azerfon” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən Naxçıvan Dövlət Universitetində nazirliyin hamiliyində olan tələbələr üçün “Mobil rabitənin əsasları” adlı seminarda Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev çıxış edərək bildirib ki, muxtar respublikada dövlətimiz tərəfindən təhsilin inkişafı sahəsində mühüm tədbirlər həyata keçirilir, tələbələrin müasir biliklərə yiyələnmələri üçün hərtərəfli şərait mövcuddur.

Naxçıvan Muxtar Respublikasının rabitə və yeni texnologiyalar naziri Vüsal Sevdimaliyev muxtar respublikada rabitə və yeni texnologiyalar sahəsinə göstərilən dövlət qayğısından danışıb. Vurğulanıb ki, nazirlik tərəfindən tələbələrin təcrübə keçmələri üçün zəruri şərait yaradılıb. Tələbələrin müasir tədris vasitələrindən istifadə edərək öz bilik və bacarıqlarını inkişaf etdirmələri üçün maarifləndirici görüş və seminarlar keçirilir.

“Azerfon” Məhdud Məsuliyyətli Cəmiyyətinin ictimaiyyətlə əlaqələr üzrə mütəxəssisi Anar Mənsimov mobil rabitənin əsasları barədə məlumat verib, “Azerconnect” Məhdud Məsuliyyətli Cəmiyyətinin Xidmət keyfiyyəti demarkasiyası şöbəsinin rəhbəri Afər Məmmədov isə tələbələri mobil standartların arxitekturası və şəbəkə avadanlıqlarının iş prinsipi haqqında məlumatlandırıb. VoLTE texnologiyasından danışılan zaman bildirilib ki, VoLTE LTE şəbəkələri üzərindən səsötürmə texnologiyasıdır.

Daha sonra vurğulanıb ki, mobil rabitənin populyarlığı artdıqca tərtibatçılar bütün dünyada standartların ötürmə qabiliyyətini və ümumi standartlaşdırmanı ciddi şəkildə artırmağa başladılar. 5G texnologiyası müasir dövrdə ortaya çıxan son texnologiyadır. Hansı ki bu texnologiya gələcəkdə bütün sahələri əhatə edəcək. Digər bütün texnologiyalarda da inkişaf sürətlərini artıracaqlar.

Təlimin sonunda tələbələri maraqlandıran suallar cavablandırılıb. Təlimdə fərqlənən tələbələr mükafatlandırılıb, digər tələbələrə isə sertifikatlar təqdim olunub.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

*Aprelin 13-də məktəblilər arasında keçirilən “Milli musiqi və rəqs” müsabiqəsinin yekununa həsr olunmuş tədbir keçirilib.*

# “Milli musiqi və rəqs” müsabiqəsinin qalibləri mükafatlandırılıb

Tədbirdə Naxçıvan Muxtar Respublikasının təhsil naziri Rəhman Məmmədov çıxış edərək təhsilə göstərilən dövlət qayğısından danışıb. Bildirilib ki, şagirdlərin bilik və bacarıqlarının inkişafı və üzə çıxarılması üçün keçirilən tədbirlərdən biri də “Milli musiqi və rəqs” müsabiqəsidir. Naxçıvan Muxtar Respublikası Təhsil və Mədəniyyət nazirliklərinin birgə təşkilatçılığı ilə reallaşan müsabiqədə məqsəd çoxəsrlik inkişaf tarixinə malik Azərbaycanın zəngin musiqi sənəti və mədəniyyətinin təbliği ilə yanaşı, şagirdlərin milli ruhda tərbiyə olunması, xüsusi bacarığa malik olan gənclərin istedadlarının aşkar edilməsindən ibarətdir.



Diqqətə çatdırılıb ki, 2021-ci il yanvarın 21-dən başlayaraq 3 mərhələdə keçirilən “Milli musiqi və rəqs” müsabiqəsində 108 məktəb üzrə 1300-dən artıq şagird iştirak edib. Müsabiqədə şagirdlər Azərbaycan milli musiqiləri, rəqsləri, xalq mahnıları, çalğı alətləri ilə çıxış edərək öz qabiliyyət və bacarıqlarını nümayiş etdiriblər.

Təhsil naziri Rəhman Məmmədov şagirdlərin istedad və bacarıqlarının üzə çıxarılması üçün yaradılan şəraitə görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirib.

Naxçıvan Muxtar Respublikasının mədəniyyət naziri Natəvan Qədimova çıxışında qeyd edib ki, muxtar respublikada milli musiqimizin inkişafına hərtərəfli dövlət qayğısı göstərilir. Diyarımızda Naxçıvan Dövlət Filarmoniyası, Naxçıvan Dövlət Uşaq Filarmoniyası, Bəstəkarlar Təşkilatı, Aşıqlar Birliyi fəaliyyət göstərir. Həmçinin Naxçıvan Dövlət Universitetinin İfaçılıq fakültəsi, Naxçıvan Musiqi Kolleci, musiqi məktəbləri musiqiçi kadrların yetişdirilməsi istiqamətində öz töhfələrini verirlər.

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri Asim Əliyev vurğulayıb ki, məktəblilər arasında keçirilən “Milli musiqi və rəqs” müsabiqəsi Azərbaycanın zəngin musiqi mədəniyyətinin təbliğində mühüm rola malik olmaqla yanaşı, şagirdlərin qabiliyyətlərinin formalaşmasında böyük əhəmiyyət kəsb edir.

Sonda qaliblər təşkilatçılar tərəfindən mükafatlandırılıb.

Qeyd edək ki, “Milli musiqi və rəqs” müsabiqəsində qaliblər münsiflər heyəti tərəfindən səhnə uyğunluğu və səhnə mədəniyyəti, jest və mimikalardan istifadə bacarığı, mahnı və rəqslərin düzgün seçilməsi, aydın intonasiya və tələffüzün düzgün qurulması nəzərə alınaraq mahnı, rəqs və çalğı alətləri nominasiyaları üzrə qiymətləndirilib.

Sonda müsabiqə qaliblərinin təqdimatında konsert proqramı olub.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

# “Realizmin işığında” fərdi rəsm sərgisi açılıb





*Aprelin 13-də Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda tanınmış rəssam Qəhrəman Tağıyevin 75 illik yubileyi münasibətilə “Realizmin işığında” adlı fərdi rəsm sərgisi təşkil olunub.*

Tədbirdə çıxış edən Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyeva muxtar respublikamızda incəsənət sahəsinə göstərilən diqqət və qayğıdan danışıb.

Bildirilib ki, yubileyi qeyd edilən Qəhrəman Tağıyev Azərbaycan Rəssamlar İttifaqının və Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin üzvü kimi bir çox müsabiqə və sərgilərdə uğurla iştirak edir. O həm də müəllim kimi pedaqoji fəaliyyətini davam etdirir, gənc nəslə rəssamlıq sənətinin sirlərini öyrədir. Rəssamın fəaliyyəti dövlətimiz tərəfindən yüksək qiymətləndirilib, ötən il Azərbaycan mədəniyyətinin inkişafında xidmətlərinə görə “Tərəqqi” medalı ilə təltif olunub.

Ülviyyə Həmzəyeva çıxışının sonunda rəssamı təbrik edib, ona yeni yaradıcılıq uğurları arzulayıb.

Tədbirdə AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev çıxışında qeyd edib ki, fərdi sərgidən də göründüyü kimi Qəhrəman Tağıyevin yaradıcılığı geniş və çoxşaxəlidir. O, müşahidə etdiklərini, gördüklərini özünəməxsus şəkildə işləyərək gözəl rəsm əsərləri ərsəyə gətirib. Rəssam fırçasının gücü ilə ərsəyə gələn bu əsərlərin özünəməxsusluğu onların həm də bir tarixi fakt kimi həmişə yaşayacağından xəbər verir.

Türkiyənin Naxçıvandakı Baş konsulu Məhmət Emin Kiraz çıxışında vurğulayıb ki, bu gün türk xalqları arasında ictimai-siyasi, eyni zamanda mədəniyyət və incəsənət sahəsində əlaqələr inkişaf etdirilir və möhkəmləndirilir. Yubileyini qeyd etdiyimiz rəssamın ömrü yaradıcılıq sahəsində çalışmalarla keçib. Onun gənc rəssamlar yetişdirilməsində də xidmətləri var. Ötən il Qəhrəman Tağıyev çəkdiyi “Atatürk” portretini konsulluğa təqdim edib. Konsul qiymətli hədiyyəyə, eləcə də incəsənətə verdiyi töhfələrə görə rəssama təşəkkürünü bildirib.

Tədbirdə Naxçıvan Müəllimlər İnstitutunun rektoru Azad Novruzov, Naxçıvan Şəhər İcra Hakimiyyəti başçısının müavini Təhminə Mustafayeva, rəssamın sənət dostlarından Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Cavid İsmayılov, Xalq rəssamı Hüseynqulu Əliyev, Azərbaycan Respublikasının Əməkdar rəssamı Telman Abdinov çıxış edərək rəssamı 75 illik yubileyi münasibətilə təbrik ediblər, ona fəaliyyətində uğurlar arzulayıblar.

Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin üzvü Qəhrəman Tağıyev fəaliyyətinə göstərilən diqqət və qayğıya görə minnətdarlıq edib.

Sonra fərdi yaradıcılıq sərgisinə görə rəssama təşəkkürnamə təqdim edilib və sərgiyə baxış olub. Qeyd edək ki, Qəhrəman Tağıyevin qrafik və yağlı boya üsulu ilə çəkilən portret, natürmort, mənzərə janrlarında 75 rəsm əsəri nümayiş olunub. “Möminə xatın”, “Əshabi-Kəhf ziyarətgahı”, “Hüseyn Cavid məqbərəsi”, “Nuh Peyğəmbərin məqbərəsi”, “Batabat obasında”, “Təbiətin simfoniyası” və digər əsərlər maraqla izlənilib. Sərgi bir həftə davam edəcək.

**Güntac ŞAHMƏMMƏDLİ**

# Təklif olunan yeni növ sığorta xidmətləri vətəndaşlar üçün faydalıdır

*Cəmiyyət həyatı müasirləşib, insanların iqtisadi və sosial aktivliyi artdıqca yeni tələbatlar da yaranıb genişlənir. Bu baxımdan gözlənilməz hadisələrin daha çox rast gəlindiyi bir dövrdə insanları bədbəxt hadisələrdən sığortalamaq mühüm bir iqtisadi tələbat kimi qarşıya çıxır. İnsanların cansağlığının bərpa olunmasına və bir sıra xəstəliklərdən müalicəsinə maddi olaraq kömək edən könüllü tibbi sığorta da, bu mənada, geniş yayılmışdır.*

Muxtar respublikamızda da bu sığorta məhsuluna olan tələbin artması insanların öz həyat və sağlamlığını qorumaq üçün yaradılmış şəraitdən istifadə ehtiyacı ilə əlaqədardır. Naxçıvan Muxtar Respublikasının Dövlət Sığorta Xidməti publik hüquqi şəxsin təklif etdiyi könüllü tibbi sığorta bu baxımdan vətəndaşlar üçün faydalıdır.

Könüllü tibbi sığorta insan sağlamlığının bərpasında mühüm əhəmiyyət daşıyır. Bu, xüsusən bazar iqtisadiyyatı şəraitində hər bir şəxsin sosial müdafiəsi, onun qarşılaşa biləcəyi maddi problemlərin həllinə kömək edən mütərəqqi dünya təcrübəsidir. Belə ki, sığorta hadisəsi baş verdikdə bu sığorta növü hər yerdə olduğu kimi, ölkəmizin vətəndaşlarının, habelə əcnəbilərin tibbi xidmətlər almasına təminat verir.

Son illər Naxçıvan Muxtar Respublikasında hər sahədə olduğu kimi, sığorta xidməti sahəsində də aparılan islahatlar və yeniliklər əhalinin maddi rifah halının davamlı olaraq artmasına imkan verir. Bu baxımdan tətbiq olunan yeni könüllü tibbi sığorta məhsulu həm yerli vətəndaşlarla, həm də Naxçıvan Muxtar Respublikasında yaşayan əcnəbi vətəndaşlara lazım olan gözlənilməz zəruri tibbi xidmətlər zamanı onlara dəymiş maddi zərərin əvəzinin ödənilməsinə xidmət edir. Təklif olunan könüllü Tibbi Sığorta Şəhadətnaməsi “Classic”, “Classic+” və “Emergency” məzmunlu olmaqla, 3 paketdən ibarətdir. Belə ki, yeni sığorta növünün təşkil olunması üçün Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzi publik hüquqi şəxs və Naxçıvan Diaqnostika Müalicə Mərkəzində, Naxçıvan Muxtar Respublika Xəstəxanasında, Şəfa Özəl Tibb Mərkəzində işlərin aparılmasına dair zəruri görüşlər keçirilmiş və göstəriləcək xidmətlər zərfi tərtib olunmuşdur. Göstərilən xidmətin etibarlı olması üçün Naxçıvan Muxtar Respublikasının Dövlət Sığorta Xidməti publik hüquqi şəxsi sığortalı vətəndaşlara sığorta ödənişinə tam zəmanət verilməsi və vətəndaşa dəymiş maddi zərərin ödənilməsini ən başlıca prioritet kimi qarşıya vəzifə qoymuşdur.



Sığorta paketlərinə gəldikdə burada “Classic” paketi üzrə hər bir sığortalı şəxs üçün illik sığortahaqqı 430 manat olmaqla maksimum 6 min manat, “Classic+” paketi üzrə 500 manat sığortahaqqı ödəməklə 8 min manat və “Emergency” paketi üzrə 180 manat ödəməklə 2500 manat həcmində sığorta ödənişinin verilməsi nəzərdə tutulmuşdur.

Publik şəxsin təqdim etdiyi yeni sığorta növü üzrə risk təminatlarına nəzər saldıqda ilk olaraq hər bir paket üzrə təcili və təxirəsalınmaz ilk tibbi yardım, ixtisaslı həkim müayinəsi və tibbi təxliyə kimi vacib olan xidmətləri görmək olar. Daha sonra hər üç paket üzrə risk təminatı olan xidmətlər arasında sığorta olunanın səhhətinin pisləşməsi, kəskin xəstəliklər, xroniki xəstəliklərin kəskinləşməsi, zəhərlənmə və digər bədbəxt hadisələr ilə əlaqədar müqavilədə nəzərdə tutulan tibbi müəssisələrə müqavilədə göstərilən tibbi xidmətlər çərçivəsində məsləhət, müayinə, müalicə və digər tibbi yardımın alınması məqsədilə göstərilən xidmətləri qeyd etmək olar. Təklif olunan bu xidmətlərə bölümlər üzrə baxdıqda isə hər üç paket üzrə ambulator və stasionar terapevtik tibbi xidmətlər, fizioterapiya xidmətləri, doğum və ginekoloji xidmətlər üzrə bir çox xidmətlərə sığorta zəmanəti verildiyini görə bilərik.

Ümumi halda, bu sığorta növü üzrə tibbi xidmətlər dedikdə mövcud qaydalara əsasən diaqnostik müayinələrin, təcili tibbi təxliyənin həyata keçirilməsi xərcləri, o cümlədən həkim tərəfindən təyin edilmiş tibbi preparatlara, sarğı materiallarına və travma nəticəsində istifadə olunan fiksasiya vasitələrinə çəkilmiş xərclər də daxil olmaqla təcili tibbi yardım xərcləri başa düşülür. Burada istisnalara gəldikdə sığorta qaydalarına əsasən sığortalının xəsarət aldığı zaman alkoqol, toksik (zəhərli), psixotrop maddələrdən və ya narkotik vasitələrdən sərxoş vəziyyətdə olması, sığortaolunan tərəfindən özünü öldürməyə cəhd etməsi və epidemiya halları sığorta hadisəsi hesab edilmir və sığortalı vətəndaşa ödəniş verilmir.

Göründüyü kimi, könüllü tibbi sığorta bu sahə üzrə vətəndaşlara geniş zəmanətlər verir. İnsanlar bu sığorta növü, onun şərtləri ilə yaxından tanışlıq üçün qaydalarla tanış olaraq onları maraqlandıran paketlər üzrə müqavilə bağlaya bilərlər. Qeyd edək ki, Naxçıvan Muxtar Respublikasının Dövlət Sığorta Xidməti ötən günlərdə bu və digər məsələlərin operativ həll olunması üçün 505 çağrı mərkəzini də vətəndaşların istifadəsinə vermişdir. Vətəndaşlar istənilən mobil operatordan bu nömrəyə zəng vurmaqla həm könüllü tibbi sığorta, həm də Dövlət Sığorta Xidmətinin təklif etdiyi digər sığorta məhsulları barədə ətraflı məlumat ala bilərlər. Bütün bu tədbirlər, ümumilikdə, insanların sığorta xidməti məhsullarına çıxışını asanlaşdırmaqla bərabər, həm də sığortaya olan inamı da artırır.

**Əli CABBAROV**

### Gəncliyimiz, gələcəyimiz

# Tarixi qədim, mərhələsi yeni gənclər siyasəti

## Bu siyasət çoxşaxəli istiqamətdə inkişaf edir

*Özünün xoşbəxt gələcəyini istəyən hər bir xalq ümidlərini gənc nəslə bağlayır. Dünyanın istənilən ölkəsində gənclər sosial-iqtisadi inkişafın aparıcı qüvvəsi, cəmiyyətin islahatları hərəkətə gətirən zümrəsi hesab olunur. Həmçinin onlar cəmiyyətin ən dinamik qüvvəsi olmaqla ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatda fəal iştirak edir, ölkədə baş verən bütün proseslərin mərkəzində dururlar. Azərbaycanda ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulan gənclər siyasətinin başlıca məqsədi milli dəyərlərə söykənən, xalqına bağlı olan, müasir düşüncəli gənc nəslin formalaşması, bu gəncliyin potensialından dövlətin inkişafı naminə maksimum istifadə olunmasıdır. Bu gün muxtar respublikamızın gəncləri də istər ölkə daxilində, istərsə də xaricində keçirilən müxtəlif tədbirlərdə iştirak edir, mövqelərini bildirirlər. Günümüzün bir reallığı da odur ki, diyarımızda gənc nəslin maraq və mənafelərini özündə əks etdirən, onların aparıcı qüvvə kimi formalaşmasına təkan verən müxtəlif fərman və sərəncamlar qəbul olunub. Bu da gənclərlə bağlı həyata keçirilən dövlət siyasətinin keyfiyyətcə yeni mərhələyə qədəm qoymasına gətirib çıxarıb.*

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən gənclər siyasəti sahəsində atılan addımlar gələcəyə hesablanmış uğurlu siyasətin təcəssümüdür. Burada diqqəti çəkən fundamental məqamlardan birini cəmiyyətin ən dinamik təbəqəsi qismində çıxış edən gənclərin potensialından səmərəli istifadə təşkil edir. Gəncliyimizin ictimai həyatın bütün sahələrində aktiv fəaliyyəti ilə seçilməsi və siyasi, iqtisadi, humanitar, sosial tədbirlərin həyata keçirilməsində mühüm rol oynaması bunun bariz nümunəsidir. Gənclərin fəaliyyəti üçün dövlətin yaratdığı geniş imkanlar nəticəsində bu təbəqə cəmiyyətin aparıcı qüvvəsinə çevrilib ki, bu da gəncliyimizin gələcək uğrunda inamlı addımlar atması deməkdir. Muxtar respublikada gənclərin problemlərinin həlli, fikir və təkliflərinin dinlənilməsi, eləcə də onların şəxsi inkişafı və dünyagörüşünün formalaşması, yaradıcılıq potensialının yüksəlməsi, müxtəlif sahələr üzrə təcrübə qazanması və yeni biliklərə yiyələnməsi, müxtəlif sahələrdə təşəbbüskarlıqlarının artırılması məqsədilə Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi tərəfindən gənclərlə mütəmadi görüşlər keçirilir.

Bu gün muxtar diyarımızda gənclər siyasəti keyfiyyətcə özünün yeni mərhələsindədir və bu proses özünü bir neçə istiqamətdə göstərir:

1. İlk olaraq ehtiva olunan mühüm istiqamətlərdən biri gənclərə bütün sahələrdə əlverişli mühitin yaradılmasıdır. Təbii ki, bu, güclü və strateji cəmiyyətin qurulmasından asılıdır. Əgər belə bir mühit formalaşıbsa, bu halda gənclər də öz potensiallarını hərəkətə gətirə bilərlər. Həmçinin onlar özlərini daha təhlükəsiz cəmiyyətdə hiss edirlər. Bu müsbət ənənə hazırda diyarımızda davam etdirilir, bundan isə cəmiyyətimiz yararlanır. O da vurğulanmalıdır ki, belə bir şəraitdə gənclərin üzərinə mühüm vəzifə düşür: məhz bu amil nəticəsində gənclər yeniləşmənin əsas daşıyıcıları hesab edilir.

2. Müasir təhsilin əsas faktorlarından hesab edilən innovasiyalar dünyanın yeni trendlərinə qoşulma, təcrübəli mütəxəssis yetişdirməkdir ki, bu istiqamətdə görülən işlər investisiya mühitinin yaxşılaşdırılmasına, yaradıcı düşüncəni və inkişafa xidmət edən ən yaxşı layihələri üzə çıxarmağa, innovativ ideyaların uğurlu biznes subyektinə çevrilməsinə hesablanıb. Bəli, bu gün diyarımızda təhsil cəmiyyətin inkişafını təmin edən aparıcı istiqamət kimi davamlı olaraq yenilənir, ən son ideyaların, bilik və bacarıqların tətbiqini zəruri edir. Muxtar respublikada 200-dən artıq müasir məktəb binasının istifadəyə verilməsi, 700-ə yaxın elektron lövhə



quraşdırılan təhsil müəssisələrində sürətli internetə çıxışın olması, 23 min şagirdin 103 ümumtəhsil məktəbində STEAM təhsilinə cəlb edilməsi bunun bariz nümunəsidir. Həmçinin ölkəmizin ali təhsil müəssisələri arasında ilk dəfə Naxçıvan Dövlət Universitetində Distant Təhsil Mərkəzinin istifadəyə verilməsi xüsusi qeyd olunmalıdır. Diyarımızda elektron universitetin fəaliyyətə başlaması ən böyük layihə olmaqla yanaşı, elektron təhsil, onlayn sənəd dövriyyəsi, akademik idarəetmə və digər təhsilin idarə edilməsi modellərini özündə birləşdirir. Eyni zamanda bu gün muxtar respublikada "Startap Naxçıvan" hərəkatı geniş vüsət alıb ki, bunun da əsas məqsədi investisiya mühitini yaxşılaşdırmaq, yaradıcı düşüncəni və inkişafa xidmət edən ən yaxşı layihələri üzə çıxarmaq, innovativ ideyaların uğurlu biznes sahəsinə çevrilməsinə dəstək olmaqdır. 2019-cu il aprelin 15-də "Naxçıvan Muxtar Respublikasında ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinin vəziyyəti və innovasiyaların dəstəklənməsi barədə" keçirilən müşavirədə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***"Ölkəmizdə və onun Naxçıvan Muxtar Respublikasında innovasiyalar uğurla tətbiq olunur. Həyata keçirilən tədbirlərin nəticəsidir ki, muxtar respublikanın bütün ərazisi fiber-optik xətlə, stasionar və mobil rabitə xidməti, eləcə də sürətli internetlə təmin edilmişdir. Bu gün muxtar respublikanın ən ucqar kəndində yaşayan insanlar da dünyada və ölkəmizdə gedən prosesləri izləyir, fikir və münasibətlərini bildirirlər. Təhsil müəssisələrinin yeni texnologiyalar və internetlə təminatı isə gənclərin hazırlıq səviyyəsini və innovasiyalara çıxış imkanlarını xeyli yüksəltmişdir. Ötən illərdə muxtar respublikada innovasiyaların tətbiqi sahəsində yaradılan şərait imkan verir ki, gənclərin ideyaları dəstəklənsin və startap layihələri uğurla həyata keçirilsin. Muxtar respublikada ailə təsərrüfatlarının inkişafı, Ağbulaq Kənd Turizm İstirahət Bölgəsinin yaradılması, müxtəlif festivalların keçirilməsi və digər tədbirlər uğurlu startap layihələrindəndir".***

3. Naxçıvan Muxtar Respublikası Gənclər Fondunun yaradılması Naxçıvanda gənclər siyasətinin mahiyyət etibarilə yeni səhifəsinin başlanğıcıdır. Fondun qarşısında duran əsas vəzifə gənclər siyasəti ilə bağlı elm, təhsil, mədəniyyət, ictimai və sosial əhəmiyyətli, o cümlədən beynəlxalq səviyyədə həyata keçirilən layihə və proqramları həyata keçirməkdir. Bu həm də gənclərin hərtərəfli inkişafını, cəmiyyətin həyatında fəal iştirakını stimullaşdırır.

4. 2012-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Fərmanı ilə Naxçıvan Muxtar Respublikasının Gənc İstedadlarının "Qızıl kitab"ı təsis edilərək öz yaradıcılıq qabiliyyəti ilə seçilən gənclərin adı bu kitaba salınıb, onlar üçün təqaüdlər təyin olunub. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 23 fevral tarixdə həmin təqaüdün məbləğinin artırılması ilə bağlı Sərəncam imzalaması isə muxtar respublikada gənc istedadlara göstərilən hərtərəfli dövlət qayğısının bariz nümunəsidir. Nəticədə, gənclərin



daha səylə çalışması, cəmiyyət üçün seçilən bir şəxs olması onlarda xüsusi bir ruh yüksəkliyi yaradıb.

5. Qədim dövrlərdən müasir günümüzədək dəyişməyən bir aksiom var: hər bir cəmiyyət gəncləri öz mədəniyyəti ruhunda tərbiyə edir. Gənclərin milli ruhda, adət-ənənələr, mənəvi dəyərlər əsasında düzgün tərbiyə olunması Naxçıvan Muxtar Respublikasında gənclər siyasətinin mühüm istiqamətlərindən biri hesab edilir. Gənclərin hərbi-vətənpərvərlik ruhunda tərbiyəsi cəmiyyətimiz üçün aktualdır. Məhz bu amili əsas götürən Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi aidiyyəti qurumlarla birgə hərbi idman yarışları təşkil edir. "Şahinlər", "Vətənin müdafiəsinə hazıram" poliatlon çoxnövçülüyü üzrə keçirilən birinciliklər onu göstərir ki, müasir gəncimiz öncə müstəqil Azərbaycanın bu günü və gələcəyi haqqında düşünür, öz fəaliyyətində yüksək vətəndaşlıq hisslərinə malik olduğunu nümayiş etdirir. Buna gənclərin yüksək potensialı, əldə etdikləri elmi bilikləri, güclü vətənpərvərlik hissləri tam imkan verir.

6. Gənclərin ictimai-siyasi proseslərdə, muxtar respublikanın inkişafında lazımi səviyyədə iştirak edə bilməsi üçün mənəvi əsas olmalıdır. Bu mənəvi əsaslar milli dəyərlər, vətənpərvərlik duyğusu ilə yanaşı, həm də göstərilən etimadı doğrultmaqdır. Məhz buna görə, diyarımızda gənclər siyasətində qarşıya qoyulan vəzifələrdən biri də yeni nəslin nümayəndələrinə etimad göstərilməsi, məsul vəzifələrdə bilik və bacarıqlarını nümayiş etdirmək üçün şəraitin yaradılmasıdır. Bu, dövlətin gənclər siyasəti yolunda apardığı strateji prioritetdir. Son zamanlar muxtar respublikamızda idarəçilik keyfiyyətləri yüksək olan perspektiv gənclərin rəhbər vəzifələrə təyin edilməsi, onların dəstəklənməsi həm də Naxçıvanda kadr ehtiyatının gün-dən-günə artması deməkdir.

7. İdmanla yanaşı, hər bir dövlətin tanınmasında mədəniyyətin də mühüm rolu var. Bu baxımdan muxtar respublikamızda uğurlu addımlar atılır, mədəniyyətə, incəsənətə dövlət səviyyəsində yüksək qayğı göstərilir. Bu sahədə muxtar respublikamızı beynəlxalq səhnələrdə təmsil edən yaradıcı və istedadlı gənclərin çoxluq təşkil etməsi isə sevindiricidir.

Göründüyü kimi, Naxçıvan Muxtar Respublikasında həyata keçirilən gənclər siyasəti ulu öndərin ehtiva etdiyi milli-mənəvi dəyərlərin qorunmasında gənclərin rolunun artırılması, gənc nəslin tarixi köklərə bağlı olan vətənpərvərlik ruhunda tərbiyəsinin təmin edilməsi, gənclərin elmi və intellektual potensialının artırılması üçün ciddi təhsil və mədəni islahatların həyata keçirilməsi, gənclərin təşkilatlanmasının təmin edilməsi, dövlətin müstəqilliyinin müdafiəsi üçün onların aparıcı qüvvə qismində birləşməsinin gücləndirilməsi, dövlət idarəçiliyində gənclərin rolunun əhəmiyyətli dərəcədə artırılması və onlarda məsuliyyət hissinin formalaşdırılması istiqamətində aparılır.

Ölkəmizdə geniş vüsət almış könüllülər hərəkatının aparıcı gücü məhz gənclərdir. Gənclərimizin potensialının, məsələlərə yeni baxışlarının cəmiyyət üçün çox lazımlı olduğunu diqqətə alan Prezident cənab İlham Əliyev 2019-cu il dekabrın 30-da Azərbaycan Respublikasında 2020-ci ilin "Könüllülər ili" elan edilməsi haqqında Sərəncam imzalamışdır. Könüllülər hərəkatının cəmiyyətin inkişafında xüsusi əhəmiyyəti var və cəmiyyətdə xeyirxahlıq, yeni davranış qaydalarını təbliğ edir. Könüllülük hərəkatı muxtar respublika daxilində geniş yayılsa da, etiraf edək ki, bu, ölkə səviyyəsində özünü göstərməmişdir. Cari ildə isə bu özünü daha qabarıq göstərməkdədir. Belə ki, bu görüş sanki könüllülük hərəkatına yeni nəfəs verdi və gənclərimizin Azərbaycan səviyyəsində keçirilən tədbirlərdə könüllü kimi iştirakları təşkil edildi.

*Bir haşiyə çıxaq:* Gənclərin cəmiyyətdə layiqli yer tutmasını təmin edən şəraitin yaradılması məqsədilə dövlət



tərəfindən müəyyən edilmiş prioritetlər və həyata keçirilən tədbirlər – məqsədyönlü dövlət gənclər siyasəti müasir dövrümüzün güzgüsü hesab edilir. Bu nüansın əsas göstəricisi isə könüllülük hərəkatıdır. Bu hərəkatın hərtərəfli inkişafı ölkənin sosial-iqtisadi, elmi və mədəni inkişafı ilə sıx əlaqədədir. Könüllü gəncləri müasir gənclər aləmində bir ölkənin (regionun) siması kimi də təqdim edənlər var: həmin ölkəni (regionu) təmsil edir, elm, mədəniyyət, təhsil və idmanın təbliğini aparır. Burada əsas məsələ könüllü gəncin natiqlik qabiliyyətidir ki, bu qabiliyyət gənclik enerjisi kimi təşəbbüskarlığı, gələcəyə ünvanlanmış inkişafı xarakterizə edir.

Muxtar diyarımızda gənclər üçün yaradılan şərait, onların fəal sosial zümrə kimi formalaşması naminə müvafiq fərman və sərəncamların verilməsi və icrası, yeni qanunların qəbul olunması müqabilində gənclərin də üzərinə mühüm vəzifələr düşür: könüllülük hərəkatında daha fəal və təşəbbüskar olmalı, digər həmyaşıdlarının könüllülük hərəkatının fəal iştirakçısına çevrilməsinə səy göstərməlidirlər. Təşəbbüsü ələ alaraq belə tədbirlərin daha canlı, effektiv və qeyri-formal keçməsinə nail olmalıdırlar. Aidiyyəti qurumların öhdəliklərini yüksək səviyyədə yerinə yetirmələrinə rəğmən gənclər də natiqlik – səlis fikir ifadə etmək, sərbəst mühakimə yürütmək, məntiqi təhlil, hazırcavablıq baxımından öz üzərlərində işləməli, daha geniş dünyagörüşə malik olmaqla analitik təfəkkür tərzi, ideyavericiliyi ilə təşəbbüsü ələ almağı bacarmalıdırlar. Daim dəyişən situasiyalarda çevik və qeyri-şablon qərarların qəbul olunmasına, aktual sualların verilməsinə ehtiyac yarandığı təqdirdə gənclər bundan çəkinməməli, hər hansı layihənin, ideyanın, innovativ düşüncənin əməli şəkildə reallaşmasında prinsipiallıq və novatorluq nümayiş etdirməlidirlər.

Digər tərəfdən ali və orta ixtisas təhsili müəssisələri hamiliyə verilən təşkilatlarla birgə tələbələrin startapla bağlı biliklərinin formalaşması, layihələrin hazırlanması, biznes planların qurulması və təqdimatı ilə bağlı maarifləndirici təlimlər keçirlər. Layihələrdə son məqsəd real biznesin qurulması, xidmətlərin təqdim edilməsi və effektiv innovasiyalar üzərində qurulmasıdır ki, bütün bunlara əməli şəkildə nail olmaq hami təşkilatlarla yanaşı, həmin tələbə-gənclərin də hər birinin üzərinə düşən ümdə vəzifədir. İqtisadiyyatın bütün sahələrinə aid olan startaplar, ilk növbədə, cəmiyyətin hansısa xidmət və ya məhsul üzrə tələbatını ödəyir, iş imkanları yaradır, uğurlu olduqda ideya rəhbərlərinə və startapa dəstək olan investorlara gəlir gətirir. Bu tezisdən doğan reallıq gənclərimizi daha çox özünə cəlb etməlidir.

Gənclər bütün dünyada siyasi və sosial həyatın lokomotivini təşkil edir. Tarixə nəzər salsaq, görərik ki, dünyada baş verən bütün önəmli hadisələrdə gənclər aparıcı qüvvə olub, olmaqda da davam edir. Həyatımızın ayrılmaz hissəsinə çevrilən müasir texnologiyalar hər kəsin daim diqqət mərkəzindədir. Xüsusilə sosiallaşmağa tələb çoxaldıqca, sosial şəbəkələrin də istifadəçi sayı artır. Şəbəkə istifadəçilərinin çoxunu isə gənclər təşkil edir. İnformasiya sahəsinə olan tələbatın artması, insanlarda sosiallığın kütləviləşməsi gənclərimizi muxtar respublikanın təbliğinə daha fəal sövq etməlidir. Onu da qeyd edək muxtar respublikada bununla bağlı aidiyyəti qurumlar tərəfindən gənclərə sosial şəbəkələrin müsbət və mənfi tərəfləri, gənclərin sosial şəbəkələrdən səmərəli istifadə etmələri, diyarımızın təbliği, faydalı müzakirələrə qoşulmaqları ilə bağlı gənclərlə fəal iş aparılır.

*Naxçıvanda gənclərə göstərilən hərtərəfli dövlət qayğısı, onların inkişafı məqsədilə yaradılan unikal şərait muxtar respublika rəhbərinin gənclər sahəsində sistemli və ardıcıl siyasət yeritdiyini bir daha təsdiqləyir. Müasir dövrün tələblərinə cavab olaraq inkişaf edən diyarımızda gənclərin enerjisindən istifadəyə obyektiv bir tələbat duyulur ki, bu da yuxarıda sadaladığımız istiqamətlərdə gənclərin yolunun nə qədər açıq olduğunu göstərir. İndi gənclik yolunda yalnız ulu öndər Heydər Əliyevin konsepsiyası əsas tutulur və bu yolda sağlam təfəkkürlü, geniş dünyagörüşlü gəncliyin formalaşması Azərbaycanın, onun muxtar diyarı Naxçıvanın parlaq gələcəyi deməkdir.*

**Ceyhun MƏMMƏDOV**

## Naxçıvan Kikboksinq Federasiyasının fəaliyyətində yeni mərhələ



Naxçıvan Muxtar Respublikası Kikboksinq Federasiyası fəaliyyətin daha da genişləndirilməsi, maddi-texniki bazanın gücləndirilməsi, uşaq, yeniyetmə və gənclərin idmana cəlbi, idmanın bu növündə kütləviliyin artırılması məqsədilə Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin himayəsinə verilib. Gənclər və idman naziri Ramil Hacı bu münasibətlə keçirilən tədbirdəki çıxışı zamanı Ali Məclis Sədrinin rəhbərliyi altında muxtar respublikamızda idmana və idmançılara dövlət qayğısından danışıb. Bildirilib ki, nazirlik idmanın inkişafı və təbliğinə nail olmaq üçün muxtar respublikanın bütün idman federasiyaları ilə qarşılıqlı fəaliyyət göstərir. Bunun nəticəsidir ki, bu sahədə mühüm nailiyyətlər əldə olunur. Belə ki, ötən il ölkə və dünya səviyyəli yarışlarda qazanılan 27 qızıl, 32 gümüş və 23 bürünc medal əyarına görə Naxçıvan idmanı tarixində ən yüksək göstərici olub. Uğurlarla yanaşı, qarşıda duran mühüm vəzifələrdən də ətraflı bəhs edən nazir idman federasiyaları və aidiyyəti qurumlarla birgə "2020-2025-ci illər üçün Naxçıvan Muxtar Respublikasında idmanın inkişafına dair Dövlət Proqramı"nın icrası istiqamətində işlərin davam etdirilməsinin zəruriliyini vurğulayıb.

Kikboksinq Federasiyasının yeni fəaliyyət istiqamətləri haqqında danışan nazir hamiliklə bağlı atılan addımın federasiyanın ümumi işinə böyük təkan verəcəyinə, birgə və məqsədyönlü fəaliyyətin nəticəsi olaraq dövlət idman siyasəti çərçivəsində qarşıya qoyulan tələb və tapşırıqların yerinə yetiriləcəyinə, bu sahənin inkişafı yolunda yeni nailiyyətlər əldə olunacağına əminliyini ifadə edib, tərəflərə uğurlar arzulayıb.

Federasiya sədri Xəyal Abdullayev bildirib ki, idmançıların peşəkar hazırlığı diqqət mərkəzində saxlanılır, yeni karyera imkanları və uğur yolunda dəstək nümayiş etdirilir. İdmançıların təkcə kikboksinqdə deyil, digər döyüş idmanı növləri üzrə açıq birinciliklərdə iştirakına zəmin yaradılır və bununla da effektiv nəticələr əldə olunur. Qeyd edilib ki, federasiya idmançıları arasında ölkə, beynəlxalq və dünya səviyyəli yarışların qalib və mükafatçıları var və bu amil gələcəyə nikbin baxmağa əsas verir. Beynəlxalq əlaqələr qurulur, onların təşkilatçılıq təcrübəsinin muxtar respublikada tətbiqi və idmançılarımızın peşəkar arenalarda iştirakı ilə bağlı işlər görülür. Hamiliklə bağlı görülən tədbir federasiyanın hədəflər uğrunda irəliləməsinə təkan verəcək.

Daxili işlər naziri Rəşad İsmayılov muxtar respublikada bədən tərbiyəsi və idman hərəkatının geniş vüsət aldığını diqqətə çatdıraraq deyib ki, Naxçıvanda müasir idman infrastrukturu yaradılıb, maddi-texniki bazanın gücləndirilməsi və idmanın hərtərəfli inkişafı ilə bağlı kompleks tədbirlər həyata keçirilir. Nazir bildirib ki, Kikboksinq Federasiyasının tərkibində 7 məşqçinin rəhbərliyi altında 2 idman klubu və 15 məşq qrupu fəaliyyət göstərir. Həmin klub və qruplarda 5-i qız olmaqla, ümumilikdə, 600-dən artıq uşaq, yeniyetmə və gənc kikboksinqlə məşğul olur. Hamilik federasiyanın fəaliyyətinin inkişafına stimul verməklə yanaşı, polis əməkdaşlarının fiziki hazırlıq məşğələlərində məşqçi-müəllimlərin təcrübəsindən yararlanması üçün də şərait yaradacaq. Nazirlik mövcud imkanlardan və yaradılan şəraitdən səmərəli istifadə etməklə göstərilən etimadı doğrultmalıdır.

Mövcud çatışmazlıqlar və görüləcək işlər barədə danışan Rəşad İsmayılov bildirib ki, federasiyanın saytı yenilənməli və gücləndirilməli, bu idman növündə kütləviliyin artırılması üçün digər rayonlarda da yeniyetmələrin idmana cəlb edilməsinə nail olunmalı, federasiyanın fəaliyyəti KİV-də və sosial şəbəkələrdə aktiv təbliğ olunmalıdır. Rayonlarda yeni kikboksinq qruplarının açılması, məşqçi-müəllimlərin peşəkarlıqlarının artırılması məqsədilə seminarların təşkil olunması intensiv hal almalıdır.

Bildirilib ki, Kikboksinq Federasiyasının fəaliyyətinin mövcud tələblər səviyyəsində qurulması üçün səy göstəriləcək, göstərilən etimad doğruldulacaq.

Çıxış edənlər muxtar respublikada bədən tərbiyəsi və idmana göstərilən diqqət və qayğıya görə Ali Məclisin Sədrinə minnətdarlıqlarını ifadə ediblər.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Əmək yarmarkası keçirilib



Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrası istiqamətində silsilə tədbirlər həyata keçirilir. Bu tədbirlər çərçivəsində əmək yarmarkaları da müstəsna yerə malikdir. Növbəti əmək yarmarkası Şərur rayonunda keçirilib.

Tədbirdə çıxış edənlər bildiriblər ki, əmək yarmarkalarında müəssisələrdə olan vakant yerlər işsiz və işaxtaran vətəndaşlara təklif olunur, peşə və ixtisası olmayan, yaxud peşə bacarığına uyğun iş tapılmasında çətinlik yaranan şəxslər peşə hazırlığına cəlb olunurlar. İşaxtaranlarla yanaşı, hərbi xidmətdən yeni tərxis olunmuş gənclərin də iştirak etdiyi yarmarkaya, ümumilikdə, 60 müəssisədən 256 boş iş yeri təqdim olunub. Nəticədə, 38 nəfərin sözügedən vakansiyalar üzrə işə göndərilməsi təmin edilib, 23 nəfərin özünüməşğulluq proqramına cəlb olunması üçün qeydiyyatı aparılıb.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

*Naxçıvan mətbəxi deyəndə gözümüz önündə fərqli təamlar canlanır. Lakin yaz fəsli özünü göstərdimi, bu təamlar, əsasən, göyərti məhsulları olur. Sirr deyil ki, muxtar respublikamızın uca dağlarında, yaşıllıqlarında bitən bir çox bitki növləri, sözün həqiqi mənasında, min bir dərdin dərmanıdır. Bu yazını qələmə almaqda məqsədimiz yaz yeməklərindən, xüsusən də Naxçıvan dovğasından bəhs etməkdir. Bu məqsədlə üz tuturuq Babək rayonunun Hacıvar kəndinə...*

*Naxçıvan mətbəxi*

## Süfrələrimizin yaz təamları

Eşitdik ki, bu kəndin sakini olan, yaşı 60-ı haqlamış Qızılgül nənənin hazırladığı təamlar dillər əzbəridir. Elə biz də mətbəximizin sirlərini öyrənmək üçün Qızılgül nənə ilə tanış olmağa tələsirik. Onunla hal-əhval tuturuq. Gəlişimizin məqsədini bildiririk. Gülümsünür və söhbətə başlayır: – Kəndimizdə bitən bitkilərdən təkcə yaz aylarında yox, ilin hər fəslində yeməklər hazırlayıram. Bu bitkilərin bəziləri var ki, onları qurudub qışa saxlayıram. Cacıq, çiriş, qazayağını yaxşıca yuyub azca qaynatdıqdan sonra süzüb, sıxıram. Soyuduqdan sonra kiçik torbalara yığıb dondurucuda saxlayıram. Bundan başqa, cacığı təmizləyib yaxşıca yuduqdan sonra şüşə balona yığır, üstünə qaynar su, hər litrə bir xörək qaşığı duz əlavə edib 10 dəqiqə qaynadıb ağzını qapaqla bağlayıram. Bunu sərin yerdə saxlamaq lazımdır.

Qızılgül nənə deyir ki, yaz fəslində yemək çeşidlərinin içərisində yabanı bitkilərlə yanaşı, həyətyanı təsərrüfatlarda becərilən göyərtilər də üstünlük təşkil edir. Belə göyərtilərin bəzilərindən dovğa və kətə bişirilir. Əsl evdar qadınlar bu dövr üçün qovurma saxlayırlar. Çünki qovurma ilə qızardılan pencərin və yumurtanın dadı əvəzedilməz olur. Qızartmada ən çox xıncılovuz, qazayağı, çiriş, cacıq, şomu, gicitkən və mərəçöhrədən istifadə edilir. Göyərti az olduqda düyü, buğda, yarma əlavə edib "cılbırt" adlandırılan yemək bişirirlər. Bir çox göyərtidən çərəz kimi də istifadə edilir.





Qızılgül nənə dillər əzbəri olan Naxçıvan dovğasının hazırlanma qaydasından da danışır: – Qızım, dovğa hazırlamaq üçün qatıq və xama un ilə çalınır, üzərinə yumurta və düyü əlavə edilir. Qatıq çürüməsin deyə, kütləni arasıkəsilmədən bir qaydada bulaya-bulaya qaynadırlar. Qaynadıqdan sonra üzərinə narın doğranmış göyərti və duz töküb hazır olana qədər bişirirlər. Dovğa ən çox yarpız, nanə, ispanaq, keşniş, cəfəri, salmanqa ilə bişirilir. Onu da deyim ki, bir çox bölgələrimizdə payız vaxtından dovğanı hazırlayıb qışa saxlayanlar da var. Dovğanın bir çox növü məşhurdur. Belə ki, ət ilə də hazırlanır. Ətli dovğa bişirmək üçün əvvəlcədən isladılmış noxud ayrı qazanda qaynadılır, ət qiyməsindən xırda küftələr hazırlanır və noxudla birlikdə hazır olana kimi bişirilir. Sonra bişmiş noxud və küftələr əsas dovğa ilə qarışdırılır. Amma, qızım, dovğanı "qatıqlama" adlanan digər yemək növü ilə qarışıq salanlar da var ki, bu düzgün deyil. Əsasən, isti yay günlərində yeyilən qatıqlamanı hazırlamaq üçün əvvəlcədən yuyulub doğranmış göyərtiyə xiyar, zövqə görə sarımsaq və əvvəlcədən bişirilmiş düyünü qatığa əlavə edib qarışdırırıq. Bir müddət soyuducuda saxlanıldıqdan sonra yeyiləndə ürəyə sərinlik verir. Bundan başqa, ağartı məhsullarından hazırlanan təamlardan bulama və şan-şan da dillər əzbəridir ki, bulamanı Boz ayda və Novruzdan sonra yenicə bala verən heyvanın şirə südü ilə adi süd qarışdırılır, bulaya-bulaya bişirilir, sonra isə soyudulur və bulama alınır. Şan-şan isə şirə südündən hazırlanan duru xəmir ilə ərsəyə gətirilir. Əvvəlcədən yağlanıb qızdırılmış tava və ya saca qaşıqla tökülüb bişirilir.

Bu gün barlı-bəhərli torpaqlarımızda müxtəlif əkinçilik məhsulları yetişdirilir, heyvandarlığın inkişafına önəm verilir, təsərrüfat adamlarına hərtərəfli qayğı göstərilir. Elə oğlum Məhərrəm də göstərilən bu qayğıdan istifadə edib.

Məhərrəm Əliyevlə söhbətimiz zamanı bildirdi ki, uzun zamandır, ev şəraitində hazırlanan ağartı məhsullarını kənd təsərrüfatı yarmarkalarına çıxardaraq gəlir əldə edirdik. Son zamanlar dövlətimizin ailə təsərrüfatlarına göstərdiyi qayğını gördükdə qərara aldım ki, mən də bu fürsətdən yararlanaraq həm təsərrüfatımı genişləndirim, həm də bazarlarımızda bolluğun yaradılmasına köməklik edim. Bu məqsədlə bir qədər kredit götürdüm. Səmərəli istifadə etdim. Müəssisəmizə ailə üzvlərimizdən başqa, 4 əlavə işçi də cəlb etmişik. Hazırda bir çox çeşiddə məhsul istehsalı ilə məşğuluq. Şor, xama, ev yağı, qatıq, Naxçıvan dovğası, qablaşdırılmış süd kimi məhsulların istehsalına daha çox diqqət yetiririk.

Kənd həyatından, burada hazırlanan təbii qidalardan ürəkdolusu danışan Qızılgül nənə söhbətimizin sonunda onu da dedi ki, kəndimizdə süfrəsində gündəlik ağartı məhsullarından istifadə edilməyən ev tapa bilməzsən. Ona görə də bu kəndin sakinləri uzunömürlü və sağlam olurlar. Biz də xalqımıza sağlam qidalanaraq sağlam yaşamağı arzu edirik.

*Bəli, dəyərli oxucularımız! Qeyd etmək istəyirəm ki, bu gün muxtar respublikamızda ailə təsərrüfatlarına göstərilən diqqət və qayğının bariz nümunəsi kimi belə müəssisələrin sayı günbəgün artmaqda davam edir. Bu isə, öz növbəsində, bazarlarımızda çeşid bolluğunun, ucuzluğun yer almasına gətirib çıxarır. Hər bir zəhmət adamına bu yolda uğurlar arzulayırıq.*

✍ **Telli MƏMMƏDOVA**

## "Hazır mühasib – Naxçıvan" layihəsinə start verilib



Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyi yanında Maliyyə Tədris Mərkəzi ilə İqtisadi Araşdırmalar və Tədris Mərkəzinin birgə təşkilatçılığı əsasında ərsəyə gələn layihəyə start verilib. Açılış tədbirində mərkəzin direktoru Mehriban İmanova çıxış edərək mərkəzin fəaliyyəti ilə bağlı məlumat verib, layihənin əhəmiyyəti haqqında danışıb. Bildirilib ki, "Hazır mühasib-Naxçıvan" layihəsinin reallaşdırılması muxtar respublikada kadr hazırlığına və gənclərin karyera quruculuğuna dəstək olmaq məqsədi daşıyır. Onlayn şəkildə təşkil olunacaq kursun ödənişsiz həyata keçiriləcəyi və 5 aya yaxın bir müddəti əhatə edəcəyi qeyd edilib.

İqtisadi Araşdırmalar və Tədris Mərkəzinin təsisçisi Radil Fətullayev mərkəz haqqında geniş məlumat verərək bildirib ki, layihədə iştirak tələbə və gənclərə beynəlxalq standartlara uyğun maliyyə hesabatlarını hazırlayıb təqdim etmək, beynəlxalq mühasibat uçotu ilə vergi uçotu arasında olan fərqləri öyrənmək, bir sözlə, mühasibat sahəsi ilə bağlı nəzəri və praktik biliklərin artırılması bacarıqlarını qazandıracaq.

Sonda layihə ilə bağlı iştirakçıların sualları cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin mətbuat xidməti***

## Yaradıcı və həvəskar şəxslərin nəzərinə!




Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi "Ailə dəyərlərimiz film və fotolarda" mövzusunda VII muxtar respublika yaradıcılıq müsabiqəsi elan edir. Müsabiqədə iştirak etmək istəyən telejurnalist və rejissorlar, ali və orta ixtisas təhsil müəssisələrinin tələbələri, həvəskar və professional fotoqraflar öz film və fotolarını şəxsiyyət vəsiqələrinin surəti və müvafiq anket ilə birlikdə 2022-ci il 30 iyun tarixədək Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinə təqdim etməlidirlər. Müsabiqəyə aşağıda göstərilən mövzular ilə bağlı işlər təqdim oluna bilər:

Xalqımızın ailə dəyərləri, adət-ənənələri, ənənəvi ailə münasibətləri və ailə mədəniyyətinin təbliği, ailənin bütövlüyünü təşkil edən amillər və ailənin uzunömürlü olmasının sirləri, nümunəvi ailələrin təbliği, yeniyetmə və gənclərin yaşlı nəslə ehtiram və hörməti, ailə quran tərəflərin onun bütövlüyü üçün əzmkarlığı, qohum və erkən nikahların, zərərli vərdişlərin yaratdığı fəsadlar, övladını tək böyüdən nümunəvi valideynin fədakarlığı, qonaqpərvərlik ənənələrimizin təbliği.

Əlavə olaraq bildirilir ki, müsabiqədə bir müəllif 1 və ya son hədd 5 ədəd olmaqla film və foto ilə iştirak edə bilər.

Film (5 dəqiqədən artıq olmaq şərti ilə) CD və ya elektron daşıyıcılarda (1 ədəd diskdə və ya flaşkartda); foto (5 ədəddən artıq olmamaq şərti ilə) CD və ya elektron daşıyıcılarda (1 ədəd diskdə və ya flaşkartda), 20x30 santimetr və daha böyükölçülü rəngli və ya ağ-qara kağız formatda olmalıdır.

Müsabiqəyə təqdim edilən işlər yeni olmalı, heç bir tədbirdə iştirak etməməlidir.

Müsabiqəyə təqdim olunmuş işlər "Ən yaxşı film" və "Ən yaxşı foto" nominasiyası üzrə münsiflər heyəti tərəfindən müəyyənləşdiriləcəkdir. Qaliblərə təşkilatçılar tərəfindən müvafiq diplom, qiymətli hədiyyə və pul mükafatı veriləcəkdir.

*Birinci yer (2 nəfər) – Diplom və pul mükafatı (hər biri 200 AZN olmaqla)*

*İkinci yer (2 nəfər) – Diplom və pul mükafatı (hər biri 150 AZN olmaqla)*

*Üçüncü yer (2 nəfər) – Diplom və pul mükafatı (hər biri 100 AZN olmaqla)*

*Həvəsləndirici yer (6 nəfər) – Diplom və qiymətli hədiyyə*

Qeyd: Müsabiqəyə təqdim olunan materiallar geri qaytarılmır.

**İtmişdir**

"Cahan" Məhdud Məsuliyyətli Cəmiyyətinə məxsus MH-0019302 seriya nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

**ŞƏRQ qapısı**

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Əli Cabbarov

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

Tiraj: 1500. Sifariş № 315